AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 35 (1435), 17 - 23 sentyabr 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasimi keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər

Sentyabrın 16-da Bakıda, Milli Gimnastika Arenasında bədii gimnastika üzrə 37-ci dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban Əliyeva və ailə üzvləri açılış mərasiminə baxıblar.

*(ardı 2-ci səhifədə)*

## Komandamız 7-ci arena polo üzrə dünya kubokunun qalibi olub

Sentyabrın 15-də Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı ilə Bakıda baş tutan 7-ci arena polo üzrə dünya kubokunun final görüşü keçirilib.

Final görüşünə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev, Milli Olimpiya Komitəsinin Baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev, Dünya Polo Federasiyasının prezidenti Reto Qaudenzi və digər qonaqlar baxıblar.

Turnirin həlledici görüşündə “Elite Horse & Polo Club Baku” (Azərbaycan) və “Los Nocheros Polo Club Münster” qarşılaşıblar. Bu dəfə də yüksək ustalıq nümayiş etdirən komandamız final görüşündən qalib ayrılıb - 15:4. Komandamızın heyətində Elçin Camallı (9), Tərlan Qurbanəliyev (4), Rəşad Həsənov və Namiq Orucov fərqləniblər.

Almaniyanın “Los Nocheros Polo Club Münster” ikinci, İsveçrənin “Evviva Polo Club St. Moritz” üçüncü, Rusiyanın “Planernaya Polo Club Moscow” komandası isə dördüncü yeri tutub.

Daha sonra dünya kubokunun qalibi olan komandamız mükafatlandırılıb. Azərbaycan Respublikası Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev qalib olan komandamıza turnirin kubokunu və qiymətli hədiyyələr təqdim edib. Turnirin ən yaxşı oyunçusu komandamızın poloçusu Elçin Camallı seçilib.

Turnirin bütün oyunları “Elite Horse and Polo Club”da yerləşən meydançada keçirilib.

Qeyd edək ki, gələn il sentyabrın 10-dan 20-dək 8 komandanın iştirak edəcəyi polo üzrə Avropa çempionatı da Azərbaycanda təşkil olunacaq.

## Milli Olimpiya Komitəsində görüş keçirilib



Sentyabrın 13-də İndoneziyanın ölkəmizdə səfərdə olan idman nümayəndə heyəti ilə Milli Olimpiya Komitəsinin (MOK) rəhbərliyi arasında görüş keçirilib. Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, MOK-un İdman idarəsinin rəisi Həsənağa Rzayev, MOK-un Beynəlxalq Əlaqələr idarəsinin rəisi Anar Bağırov, İndoneziya Respublikasının Gənclər və İdman Nazirliyinin Sənaye və İdmanın Təşviqi şöbəsinin direktoru Sandi Suvardi Hasan, həmçinin qurumun digər rəsmiləri Hermina Purbasari, Dian Haerani, Melati Vemon və Mutiara Nadya Habibita iştirak edib. Nümayəndə heyətinin səfəri “Pençak-silat: Olimpiadaya gedən yol” kampaniyası çərçivəsində təşkil olunub.

Görüş çərçivəsində qurumlar arasında əlaqələrin genişləndirilməsi və bu istiqamətdə görüləcək işlər, pencak-silat idman növünün Azərbaycanda inkişafı və yarışların təşkili, o cümlədən bir sıra məsələlər müzakirə edilib. Sonda tərəflər biri-birlərinə xatirə hədiyyələri təqdim ediblər.

## *Yunan-Roma güləşçilərimiz dünya çempionatında iki medal qazanıblar*

Qazaxıstanın paytaxtı Nur-Sultanda keçirilən dünya çempionatında Azərbaycanın yunan-Roma güləşçiləri iki medal qazanıblar.

Pəhləvanlarımızdan Rafiq Hüseynov (82 kq) moldovalı Mixail Bradu, Ukrayna idmançısı Yuri Şkriuba, qazaxıstanlı Maxat Yerejepov və İran təmsilçisi Seyid Abdvalini məğlub edərək dünya çempionatının finalına yüksəlib. Həlledici qarşılaşmada təmsilçimiz Gürcüstan güləşçisi Laşa Qobadzeyə məğlub olaraq gümüş medalla kifayətlənib.

Dünya çempionu Eldəniz Əzizli (55 kq) də yarışa qələbə ilə başlayıb. Təmsilçimiz hindistanlı Manjet Manjeti məğlub edərək dörddəbir finala yüksəlib. İdmançımızın növbəti rəqibi Monqolustan güləşçisi Davaabandi Munh Erden olub. Rəqibini məğlub edən dünya çempionumuz yarımfinalda qazaxıstanlı Korlan Jokanşa ilə qarşılaşıb. Görüşdən məğlub ayrılan E.Əzizli bürünc medal uğrunda görüşdə Maks Emilyano Nourini (ABŞ) üstələyərək dünya çempionatını üçüncü pillədə başa vurub.

Qeyd edək ki, dünya çempionatında 100-dən çox ölkədən 900 güləşçi 30 dəst medal uğrunda mübarizə aparır. Tokio-2020 Yay Olimpiya




Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda güləşçilər 108 Olimpiya vəsiqəsi uğrunda yarışırlar.

## “EXPO Arena” rinqində həyəcan davam edir

Rusiyanın Yekaterinburq şəhərində kişi boksçular arasında dünya çempionatı davam edir. Çempionatın yeddinci günündə Azərbaycan millisinin 3 boksçusu qüvvəsini sınayıb. Onlardan ikisi mərhələ adlayıb, digəri isə yarışla vidalaşıb. Çempionatda 57 kiloqram çəki dərəcəsində mübarizə aparan boksçumuz Tayfur Əliyev türkmənistanlı Yazmurat Qurbanovu, 81 kiloqram çəki dərəcəsində çıxış edən Alfonso Dominqes İspaniya təmsilçisi Qazimaqomed Calidovu məğlub edərək səkkizdəbir final mərhələsinə yüksəliblər. İsmayıl Yaqubov (91 kiloqram) isə Ukrayna təmsilçisi Marat Qriqoryanı mübarizədən kənarlaşdıra bilməyib.

1/8 finalda T.Əliyev ingiltərəli Peter Makqraillə, A.Dominqes isə avstriyalı Umar Cambekovla qarşılaşacaq.

Qeyd edək ki, bundan əvvəl komandamızın digər üzvü Məsud Yusifzadə (52 kiloqram) də 1/8 finala yüksəlmişdi.

Dünya çempionatında yarışlar yeni qaydalara əsasən 8 çəki dərəcəsində təşkil olunur. Yekaterinburqdakı “EXPO Arena”da keçirilən yarışda təsnifat mərhələsinin qarşılaşmaları sentyabrın 17-dək davam edəcək. Ayın 18-də boksçular dörddəbir final mərhələsində yarışacaqlar. Ertəsi gün istirahət edəcək idmançılar sentyabrın 20-də yarımfinal görüşlərini keçirəcəklər. Yarışın qalibləri ayın 21-də müəyyənləşəcək.

## *Olimpizm*

### Güləşin daha bir növü olimpiadanın proqramına salınacaq

“Dünya çempionatında Təşkilat Komitəsi bizim bütün tələblərimizə uyğun bütün təşkilati işləri görüb. İnanıram ki, hər şey daha yaxşı və maraqlı alınacaq. Bu gün biz maraqlı görüşlər izlədik. Burada güclü idmançılar mübarizə aparır. Özümüzü çox yaxşı hiss edirik”.

Bunu Dünya Güləş Birliyinin (UWW) prezidenti Nenad Laloviç mətbuat konfransında deyib.

Serbiyalı funksioner bildirib ki, ötən gün keçirilmiş büro iclasında gənclər arasında yarışların səviyyəsini daha da gücləndirmək barədə qərarlar qəbul edilib. O, 2022-ci il dünya çempionatını təşkil edəcək Rusiyanın Krasnoyarsk şəhərinin indiyədək nüfuzlu yarışlara ev sahibliyi etdiyini də xatırladıb. N.Laloviç növbəti illər üçün də dünya çempionatlarının təşkilatçılarını daha erkəndən müəyyənləşdirmək istədiklərini də qeyd edib.

UWW prezidenti güləşin ənənəvi növləri - pankration, qrapling və kəmər güləşinə marağı öyrəndiklərini və onları vahid bayraq altında birləşdirməyə çalışdıqlarını əlavə edib. O, ənənəvi növləri qısa müddətdə inkişaf etdirməyin çətinliyini dilə gətirib.

N. Laloviç çimərlik güləşini də inkişaf etdirmək istədik: “Bütün planlarımızı açıqlamaq istəmirik. Bu yaxınlarda Qətərdə ilk çimərlik Oyunları təşkil olunacaq. Həmin yarışda çimərlik güləşinə də böyük maraq olduğunu görəcəyik. Bu növün olimpiada proqramında yer alması isə zamanın işidir”.

### Tokio-2020 Paralimpiya Oyunlarında qaçqınlar komandası da iştirak edəcək

Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) məlumatına görə, 2020-ci ildə Tokioda keçiriləcək Paralimpiya Oyunlarında qaçqınlar komandası da iştirak edəcək.

Bunu BPK-nin prezidenti Endrü Parsons NHK telekanalına müsahibəsində deyib. Onun sözlərinə görə, Tokioda 4-dən 8-dək qaçqın paralimpiyaçının yarışacağı gözlənilir.

Xatırladaq ki, iki qaçqın paralimpiyaçı idmançıdan ibarət komanda ilk dəfə Rio-2016 Paralimpiya Oyunlarında iştirak edib.

E.Parsons deyib ki, Tokioda yarışacaq idmançıların seçimi ilə bağlı beynəlxalq idman federasiyaları ilə müzakirələr aparılır. Tokioda təşkil ediləcək Paralimpiya Oyunlarına hazırlıq işləri əvvəlkilərdən yaxşıdır. Paralimpiya Oyunları üçün ən böyük problem nəqliyyat məsələsidir. Təşkilat komitəsi ilə yerli hakimiyyət orqanlarının birgə fəaliyyəti şəhərdə nəqliyyatın hərəkətinə mənfi təsirləri azalda bilər.

# Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatının açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər

*(əvvəli 1-ci səhifədə)*

Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova da açılış mərasimində olub.

Mərasimdə əvvəlcə iştirakçı ölkələrin dövlət bayraqları təqdim edildi.

Açılış mərasimində çıxış edən Azərbaycanın Gənclər və İdman naziri Azad RƏHİMOV dedi:

- Hörmətli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Hörmətli Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva.



Hörmətli Beynəlxalq Gimnastika Federasiyasının prezidenti cənab Morinari Vatanabe.

Beynəlxalq aləmdə idman tədbirlərinin yüksək səviyyəli təşkilatçısı kimi tanınan Azərbaycanda bu gün daha bir nüfuzlu idman yarışı keçirilir. On dörd ildən sonra Azərbaycan bədii gimnastika üzrə 37-ci dünya çempionatına ev sahibliyi edir.

2014-cü ildə istifadəyə verilən bu möhtəşəm arena dövlətimizin başçısı İlham Əliyevin ümumilikdə idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Gimnastika növləri üzrə Bakıda dünya kubokları, Avropa və dünya çempionatları yüksək səviyyədə keçirilir. Azərbaycan Gimnastika Federasiyası ardıcıl olaraq iki il dünyanın ən yaxşı federasiyası adına layiq görülüb. Təsadüfi deyil ki, Beynəlxalq Gimnastika Federasiyası bu mötəbər yarışın təşkilini məhz ölkəmizə həvalə edib.

Müasir Azərbaycan gimnastikasında olan bugünkü nailiyyətlər ölkəmizin Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Mehriban xanımın rəhbərlik etdiyi yerli təşkilat komitəsinin hər bir üzvünə, yerli və xarici könüllülərə minnətdarlığımızı bildiririk.

Sözsüz ki, yarışın Tokio Olimpiya Oyunlarına təsnifat xarakteri daşıması, 61 ölkənin 300-dən çox idmançısının mükafatlar uğrunda mübarizə aparması dünya çempionatının gərgin mübarizə şəraitində keçəcəyinə, maraqlı və unudulmaz olacağına əminlik yaradır. İdmançılara isə yaranmış bu imkandan bəhrələnərək layiqli mübarizə aparmağı və qələbə qazanmalarını arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

x x x

Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari VATANABE çıxış edərək dedi:

- Beynəlxalq Gimnastika Federasiyasının prezidenti olaraq sizi burada - Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatında salamlamaqdan məmnunluq duyuram. Bu gündən etibarən yeddi gün ərzində dünyanın müxtəlif ölkələrindən olan bədii gimnastlar "Tokio 2020" Olimpiya Oyunlarına lisenziya qazanmaq uğrunda mübarizə aparacaqlar. Onlar həm də gözəllik üçün yarışacaqlar. Mən inanıram ki, bu, tamaşaçılar üçün gözəl musiqi və əsrarəngiz bədii gimnastika çıxışlarının harmoniyasından həzz almaq üçün böyük bir imkandır.

Azərbaycan Gimnastika Federasiyasına, xüsusilə də federasiyanın prezidenti Mehriban xanım Əliyevaya, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimova, tədbirin bədii gimnastika üzrə səfiri Yana Batırşinaya, könüllülərə və çempionatı bu cür gözəl səviyyədə təşkil etməkdə əməyi olan hər kəsə təşəkkürümü bildirirəm.

Əziz gimnastlar, əminəm ki, siz bədii gimnastikanın gözəlliyini və mükəmməlliyini dünyaya nümayiş etdirəcəksiniz.

x x x

Mərasimdə Beynəlxalq Gimnastika Federasiyasının sentyabrın 13-də vəfat edən, iyirmi il bu quruma rəhbərlik etmiş sabiq prezident Bruno Qrandinin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Sonra Azad Rəhimov, Morinari Vatanabe və dünya çempionatının səfiri, bir neçə dəfə dünya çempionu, Olimpiya Oyunlarının mükafatçısı, rusiyalı gimnast Yana Batırşina çempionatı açıq elan etdilər.

Tanınmış müğənni və bəstəkar, Əməkdar artist Tünzalə Ağayeva Azərbaycanın dövlət himnini akapella üslubunda ifa etdi.

Daha sonra hakimlərin, gimnastların və məşqçilərin adından and içildi. Misir Gimnastika Federasiyasının nümayəndəsi Sarah Qhoneim hakimlər, azərbaycanlı gimnast Zöhrə Ağamirova atletlər, Meksika yığma komandasının məşqçisi Karalina Rangel isə məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olduğunu bir daha xatırladı.



Dünya çempionatının ulduz səfiri, Azərbaycanın sevilən müğənnisi, Əməkdar artist Miri Yusif məhz bu yarış üçün xüsusi yazılmış "Birinci ol" mahnısını ifa etdi.

Mərasimdə Şərq motivləri əsasında səhnələşdirilmiş "Şərq nağılı" şousu təqdim olundu. Şouda gimnastikanın müxtəlif növləri üzrə 200-ə yaxın gimnast və onların məşqçiləri iştirak etdilər. Bu şouda səhnəyə çıxan ən kiçik gimnastın doqquz yaşı var.

Şoudan sonra məşhur müğənni, Xalq artisti, hit mahnıların ifaçısı Emin Ağalarov sevilən mahnıları ilə tamaşaçıların qəlbini fəth etdi.

Beləliklə, Azərbaycan daha bir unudulmaz açılış mərasimi ilə adını dünya gimnastika yarışlarının tarixinə yazdı.

Qeyd edək ki, "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyan çempionatda 61 ölkədən 300 gimnast 9 dəst medal uğrunda mübarizə aparır.

"Nağıllar gerçəkləşəcək" devizi ilə təşkil olunan dünya çempionatına Azərbaycan 9 gimnastla qatılıb. Fərdi proqram üzrə yarışlarda Zöhrə Ağamirova, Veronika Qudis, Yelizaveta Luzan və Məryəm Səfərova güclərini sınayacaqlar. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar.

Sentyabrın 22-dək davam edəcək çempionatda fərdi proqramda çoxnövçülük üzrə ilk 16-lıqda yer alan gimnastlar (bir ölkədən maksimum 2 gimnast olmaqla) Tokio Olimpiadasına lisenziya əldə edəcəklər. Qrup hərəkətləri komandalarına gəldikdə isə, ötən ilin dünya çempionatının nəticələrinə əsasən, Bolqarıstan, Rusiya və İtaliya artıq lisenziyanı təmin ediblər. Çempionatda çoxnövçülük xalları üzrə daha 5 ən yaxşı komanda Olimpiadaya vəsiqə qazanacaq.

## *Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatında yarışlara start verilib*

Xəbər verdiyimiz kimi, Bakıda bədii gimnastika üzrə 37-ci dünya çempionatı keçirilir. Çempionatın birinci günündə gimnastlar fərdi proqram üzrə 4 qrupda (A,B, C, D) halqa və topla təsnifat mərhələsində güclərini sınayıblar. Milli komandamızın təmsilçiləri Zöhrə Ağamirova və Veronika Qudis yarışların ilk günü A qrupunda halqlarda mübarizəyə qoşulublar. Təmsilçilərimizin yer aldıqları qrupda 29 gimnast mübarizə aparıb. İlk günün nəticələrinə əsasən Zöhrə Ağamirova 19,000 xalla beşinci, Veranika Qudis isə 16,950 xalla 16-cı yerdə qərarlaşıblar. Bu gün gimnastlar halqa və topla təsnifat, həmçinin final yarışlarında qüvvələrini sınayırlar. Sentyabrın 18-19-da gürzlər və lentlə təsnifat yarışları təşkil olunacaq. Eləcə də gürzlər, lentlə və komanda hesabında yarışlarda qaliblər müəyyənləşəcək. Çempionatın beşinci günündə - sentyabrın 20-də çoxnövçülük üzrə final yarışları baş tutacaq. Habelə "Prize of Elegance" mükafatının qalibi müəyyənləşəcək. Sentyabrın 21-də qrup hərəkətləri komandaları mübarizəyə qoşulacaqlar. Gimnastlar 5 top, 3 halqa və 2 cüt gürzlə yarışacaqlar. Günün sonunda çoxnövçülük üzrə qaliblər mükafatlandırılacaq. Ayın 22-də çempionata 5 top, 3 halqa və 2 cüt gürzlə final yarışları ilə yekun vurulacaq.

## Taekvondoçularımızdan uğurlu nəticə

Yaponiyanın Çiba şəhərində keçirilən taekvondo üzrə Qran-pri turnirinə yekun vurulub. "Gündoğar ölkə"də 8 taekvondoçu ilə mübarizə aparan Azərbaycan idmançıları turnirdə iki medal qazanıblar. Təmsilçilərimizdən G4 kateqoriyalı yarışda 80 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Olimpiya çempionumuz Radik İsayev bürünc medala sahib çıxıb. R.İsayev ilk rəqibi komanda yoldaşı Ramin Əzizova, daha sonra böyük britaniyalı Lutalo Məhəmməd və Qazaxıstan idmançısı Ruslan Zaparova qalib gələrək yarımfinal mərhələsinə yüksəlib. Bu mərhələdə dünya çempionumuz rusiyalı Vladislav Larina məğlub olaraq yarışı fəxri kürsünün üçüncü pilləsində başa vurub.



Digər taekvondoçumuz Milad Beiqi Harçeqani isə yarışın sonuncu günündə 80 kiloqram çəki dərəcəsində qızıl medala layiq görülüb. İkiqat dünya çempionumuz fransalı İsmail Souhil, ispaniyalı Daniel Barrera və italiyalı Simon Allesionu mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Finala vəsiqə uğrunda xorvatiyalı Toni Kanaetlə döyüşdən də qalib ayrılan təmsilçimiz həlledici qarşılaşmada rusiyalı Maksim Kramtçovu da məğlub edib. O, bununla aktivinə 40 reytinq xalı yazdırıb.

Qeyd edək ki, Qran-pri turnirlərinin növbəti mərhələsi oktyabrın 18-20-də Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək. Yarışın final mərhələsi isə dekabrın 6-7-də Moskvada təşkil olunacaq.

## *Gənclər və idman naziri xüsusi mükafata layiq görülüb*

Budapeştdə Avropa Ədalətli Oyunlar Komitəsinin 25-ci konqresi keçirilib.

Beynəlxalq Ədalətli Oyunlar Təşkilatının 25 illiyinə həsr olunan bu tədbirdə Azərbaycan tərəfindən Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) sədri, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev, Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyev və digər şəxslər iştirak ediblər.

Budapeştdəki "City Hall"da keçirilən tədbirdə Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) prezidenti Jeno Kamuti çıxış edərək tədbir iştirakçılarını salamlayıb, qurumun fəaliyyəti və təqdim olunacaq "Fair Play" mükafatları barədə məlumat verib.

Budapeşt Şəhər Bələdiyyəsi sədrinin müavini Aleksandra Şalay-Bobrovinski, Dövlət katibinin müavini Petr Sarfalvi də tədbir iştirakçılarına salamlarını çatdırıb, ölkələrinin idmana və ədalət prinsiplərinə daim önəm verdiyini bildiriblər.

Musiqili proqramla davam edən tədbirin gedişində ədalətli oyun prinsipləri mövzusunda film nümayiş olunub.

Daha sonra mükafatlar sahiblərinə təqdim olunub. Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin prezidenti Jeno Kamuti tərəfindən "2018-ci il Dünya Ədalətli Oyunlar Mükafatı"nın "Ədalətli oyun ruhunda keçən idman karyerası və həyat" kateqoriyasında mükafatlandırılıb.

Nazir Azad Rəhimov tədbirdəki çıxışında Azərbaycanda idmanın uğurlu inkişafı, dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmanın inkişafına göstərdiyi yüksək diqqət və qayğıdan danışıb, mükafata layiq görüldüyünə görə təşəkkürünü bildirib.

Sonda mükafat sahibləri xatirə şəkilləri çəkdiriblər.

Xəbərlər

## 3 şahmatçımız növbəti mərhələyə yüksəlib

Xantı-Mansiyskdə keçirilən şahmat üzrə dünya kuboku turnirinin otuzikidəbir final mərhələsində taybreyk partiyalarına yekun vurulub.

Azərbaycan şahmatçısı Teymur Rəcəbov rusiyalı Sənan Syugirov üzərində bir heç-heçə və bir qələbə qazanıb. Eltac Səfərli isə hindistanlı Sarin Nihala birinci görüşdə qalib gəlib, ikincisində isə heç-heçə edib. Tay-breykdə mübarizə aparan digər şahmatçımız Nicat Abbasov isə ABŞ təmsilçisi Leyner Dominguez Perezə hər iki partiyada məğlub olub. Beləliklə, Ş.Məmmədyarov, T.Rəcəbov və E.Səfərli dünya kubokunun onaltıdabir final mərhələsinə vəsiqəni təmin ediblər.

Xatırladaq ki, beş şahmatçımızın iştirak etdiyi dünya kuboku yarışlarında Arkadi Naydiç almaniyalı Niklas Huşenbetə məğlub olaraq mübarizəni dayandırmışdı.

Dünya kubokunun finalına adlayan şahmatçılar 2020-ci ildə şahmat tacına iddiaçıların turnirində iştirak etmək hüququ qazanacaqlar. FIDE prezidenti Arkadi Dvorkoviç bildirib ki, təşkilatçıların xüsusi dəvətnaməsi olacağı təqdirdə, turnirin birinci mükafatçısı da belə bir hüququ yiyələnə bilər.

Dünya kuboku yarışları oktyabrın 4-dək davam edəcək. Turnirin mükafat fondu 1,6 milyon dollardır.

## Gənc qılıncoynadanlar Bakı birinciliyində yarışıblar



Azərbaycan Texniki Universitetinin İdman Sarayında yeniyetmə və gənclər arasında qılıncoynatma üzrə Bakı birinciliyinə yekun vurulub.

Azərbaycan Qılıncoynatma Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə təşkil olunan yarışın ikinci günündə gənc qılıncoynadanlar arasında sablya, şpaqa və rapira növləri üzrə qaliblər müəyyənləşib.

Oğlanlar arasında sablyada Murad Əkbərov, şpaqada Ruslan Həsənov, rapirada isə İlkin Cəfərzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların mübarizəsində isə sablyada Sara Aydəmirova, şpaqada Nazilə Rəhimova, rapirada isə Püstəxanım Dadaşova birinci olublar. Mükafatçılar diplom və medallarla təltif olunublar.

Yubiley

## Veteran boksçu 85 yaşını qeyd edib

Veteran boksçu Paşa Əliyevin 85 yaşı tamam olub. Paşa İbrahim oğlu Əliyev 1934-cü il sentyabrın 16-da Gürcüstanın Batumi şəhərində dünyaya göz açıb. 16 yaşında ailəsi ilə birlikdə repressiya qurbanı kimi Qazaxıstana sürgün edilib. Orta məktəbi bitirdikdən sonra Qazaxıstan Dövlət Bədən Tərbiyəsi və İdman İnstituna daxil olub. Gənc idmançının perspektivini, istedadını görən Azərbaycan boksunun banisi Abbas Ağalarov onun Bakıya köçüb, ali təhsilini Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunda davam etdirməsini təklif edib. Belə ki, 1956-cı ildə repressiyaya məruz qalan ailəyə bəraət verilib. 1959-cu ildə Paşa Əliyev Bakıya qayıdaraq, ölkəmizi bir sıra yarışlarda layiqincə təmsil edib. O, 1959-1964-cü illərdə dəfələrlə Azərbaycan çempionu adına layiq görülüb.



"Burovestnik" idman cəmiyyətinin birinciliyində gümüş, SSRİ tələbələrinin universiadasında bürünc medala sahib çıxıb. Krasnodar, Lvov, Tallin və başqa şəhərlərdə keçirilən ümumittifaq turnirlərində mükafatçılar sırasında yer alıb.

1962-ci ildə SSRi idman ustası adına layiq görülən Paşa Əliyev 2000-2005-ci illərdə Azərbaycan Boks Federasiyasında Veteranlar Şurasının sədri vəzifəsində çalışıb. Əmək fəaliyyətinə məşqçi-təlimatçı kimi başlayıb. 1971-2006-cı illərdə Azərittifaq aparatında mütəxəssis və baş mütəxəssis vəzifəsində çalışıb. 2018-ci ildə beynəlxalq və respublikadaxili yarışlarda hakim kimi iştirak edib.

Veteran idmançı Paşa Əliyev ömrünün 65 ilini boks idman növünə həsr edib. Azərbaycan Boks Federasiyası idman ictimaiyyəti adından veteran boksçu Paşa Əliyevi 85 illik yubileyi münasibətilə təbrik edir.

*Tofiq Babanlı*

Karate

## Dənizkənarı Milli Parkda açıq karate seminarı



Sentyabrın 14-də Dənizkənarı Milli Parkda uşaq, yeniyetmə və gənclər üçün açıq karate seminarı təşkil olunub.

Karatenin daha da populyarlaşması və təbliği məqsədilə təşkil olunan seminar sentyabrın 27-29-da Azərbaycanın Milli Qəhrəmanı, tankçı Albert Aqarunovun 50 illik yubileyinə həsr olunmuş 6-13 yaşlı uşaqlar arasında "Olimpiya ümidləri"beynəlxalq turnirinin ilk hissəsi kimi yarış iştirakçıları üçün nəzərdə tutulub.

Seminarda respublikanın müxtəlif bölgələrini təmsil edən klubların tərkibində minə yaxın idmançı iştirak edib.

Tədbirdə çıxış edən dağ yəhudiləri dini icmasının rəhbəri Melix Yevdayev Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun xatirəsinə həsr olunan beynəlxalq turnirin təşkilinə görə yəhudi icmasına minnətdarlığını bildirib. O, Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan tolerantlıq siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın dünyada tolerantlıq məkanı kimi tanındığını ifadə edib: "Biz Azərbaycan xalqı ilə uzun əsrlərdən bəri bir yerdə yaşamışıq, daim onların şad günlərinə sevinmişik, dar günlərində bir yerdə olmuşuq".

Tədbirin təşkilatçılarından olan Veteran Tankçılar Birliyinin sədri Hacı Əzimov A.Aqarunov ilə bağlı xatirələrini bölüşüb, turnirin təşkilinə görə minnətdarlığını bildirib.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov isə belə seminar və turnirlərin gənc karateçilərin yetişməsində əhəmiyyətini xüsusi vurğulayıb. O, bu seminara ayrı-ayrı klublardan minə yaxın idmançının cəlb olunduğunu bildirib. Federasiya prezidenti sentyabrın 27-29-da keçiriləcək karate turnirinə yüksək səviyyədə hazırlaşdıqlarını söyləyib.

Seminarda federasiya rəsmiləri, milli komandanın məşqçiləri, yığmanın üzvləri təcrübələrini azyaşlılarla bölüşüb, bu idman növünün sirləri barədə məlumat veriblər.

## "Sərhədçi" İOM-un təmsilçiləri beynəlxalq yarışlarda uğurla çıxış edirlər

Dövlət Sərhəd Xidmətinin "Sərhədçi" İdman Olimpiya Mərkəzinin (İOM) idmançıları beynəlxalq yarışlarda ölkəmizi layiqincə təmsil edirlər.

İranın Məşhəd şəhərində yeniyetmələr və gənclər arasında karate üzrə keçirilən beynəlxalq



turnirdə məşqçi Zöhrab Səfərovun rəhbərlik etdiyi "Sərhədçi" komandası ümumilikdə 12 medal qazanaraq komanda hesabında ikinci yerə çıxıb.

Komandanın heyətində müxtəlif çəki dərəcələrində karatenin kumite növü üzrə komanda yarışlarında Namiq Qasımzadə, Famil Quliyev, Qələndər və Cəlal Miriyevlər qızıl, şəxsi kata yarışlarında Sənan Hüseynzadə qızıl, Qələndər Miriyev gümüş, Cəlal Miriyev bürünc, şəxsi kumite yarışlarında Sənan Hüseynzadə gümüş, kata üzrə komanda yarışlarında Namiq Qasımzadə, Famil Quliyev, Cəlal Miriyev və Sənan Hüseynzadə bürünc medallar qazanıblar.

Eyni zamanda Londonda keçirilən üzgüçülük üzrə paralimpiyaçıların dünya çempionatında "Sərhədçi" İOM-in məşqçisi Rəşad Əliyevin yetirməsi Vəli İsrafilov brass növü üzrə 100 metr məsafəyə yarışda üçüncü yeri tutub.

Formula 1

## Alonso yenidən Formula 1-ə qayıdır?

Formula 1-in ikiqat dünya çempionu Fernando Alonso 2021-ci ildə tətbiq edilməsi nəzərdə tutulan yeni reqlamentin qüvvəyə minməsindən sonra "böyük mükafat" uğrunda yarışlara qayıda biləcəyini istisna etməyib.

"Motorsport" portalı ispaniyalı pilotun aşağıdakı sözlərini sitat gətirib: "Düşünürəm ki, məni Formula 1-dən kənarda gözləyən biriki problemi həll etməliyəm. Mən hələ "İndianopolisdə 500 mil" yürüşündə öz işimi başa çatdırmamışam, bir neçə digər məsələlər də qalır. Zənnimcə, yeni reqlamentin qüvvəyə minməsi ilə Formula 1 indikindən daha fərqli olacaq.




Yarışlardan uzaqlaşmama səbəb olan problemlər hələ də qalır. Bir komanda hegemonluq edir və yürüşlərin sonu o qədər də fərqli olmur. 2021-ci ildə hər şey dəyişə bilər və mümkündür ki, bu dəyişikliklər qayıtmağım üçün yaxşı imkan yaratsın".

* * *

Formula 2-nin kanadalı pilotu, "Uilyams" komandasının ehtiyat pilotu Nikolas Latifi növbəti mövsüm üçün Britaniya komandası ilə döyüş pilotu müqavilesi imzalayıb.

O, Robert Kubitsanı əvəzləyəcək. Latifinin "Uilyams" ilə müqavilə imzalayacağı barədə şayiələr, demək olar, bütün mövsüm boyu dolaşıb. KİV-lərin yaydığı məlumata görə, kanadalı artıq indiki mövsümdə komandanın heyətinə qoşula bilər. Lakin əslində, bu, mümkün deyil, çünki Latifinin superlisenziyası yoxdur. O, bu F-2 mövsümündə ümumi hesabda ikinci yeri tutur.

* * *

"Red Bull Racing" komandası noyabrda keçiriləcək Formula 1 ABŞ Qran-Prisindən sonra növbəti mövsüm üçün heyətini müəyyənləşdirəcək.

Bunu komandanın idman məsləhətçisi Helmut Marko deyib.

O bildirib ki, komanda növbəti mövsüm üçün Pyer Qasli, Aleksander Albon və Daniil Kvyatdan birini heyətinə cəlb etmək istəyir: "Heyətə cəlb etmək istədiyimiz namizədlər arasında Sebastian Fettel yoxdur. Bir neçə il əvvəl almaniyalı pilot komandamızda möhtəşəm çıxışı ilə yadda qalmışdı. Ancaq hazırda onunla danışıqlar aparılmır. Noyabrın əvvəlində keçiriləcək ABŞ Qran-Prisindən sonra növbəti mövsümdə kiminlə çıxış edəcəyimizə qərar verəcəyik".

Basketbol

## Sumqayıt birinciliyinə yekun vurulub

Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə 3x3 basketbol (stritbol) üzrə oğlan və qızlar arasında şəhər birinciliyi keçirilib.



Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin mətbuat xidmətindən verilən məlumata görə Sumqayıt şəhərinin 70 illik yubileyinə həsr edilmiş birincilikdə 16 komanda mübarizə aparıb.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda oğlan və qızlardan ibarət "Təhsil" komandaları bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Yarışın qalib və mükafatçıları fəxri fərman, medal, kubok və hədiyyələrlə təltif olunublar.



*Mobil İSMAYILOV*

# Ürəklərə yol tapan futbolçu

Tələbəlik, gənclik illərimdə futbol meydanlarında məni həmişə Vladimir Qutsayevə bənzədirdilər. Yəqin ki, bu fikri irəli sürənlər oyun stili ilə xarici görünüşün üst-üstə düşməsini əsas götürürdülər. Hətta deyirdilər ki, saç düzümündə və üz cizgilərində oxşarlıq daha çoxdur. Görünür məşhur futbolçuya marağın artması, həvəskar futbolçunun peşəkar hücumçunu müntəzəm izləməsi elə o vaxtlardan başladı. Bəlkə də, sonradan Qutsayevin sovet dövründə mənim ən çox sevdiyim futbolçuya çevrilməsinin səbəblərini həm də deyilən bu fikirlərdə axtarmaq lazımdır.

Mənə görə Qutsayev super futbolçu kimi tarixdə qalıb. O dövrdə Qutsayev başqa bir aləm idi. Təsadüfi deyildir ki, sovet futbolu üçün ayrıca bir məktəb olub. Məşhur idman şərhçisi Kote Maxaradzenin təbirincə desək, o, xəzinə idi...

... Vladimir Qutsayev 1952-ci ildə Tbilisidə doğulub. 1971-ci ildən Tbilisinin "Dinamo" komandasında çıxış etməyə başlayıb. Yalnız bir komandada oynayıb. 1978-ci ildə "Dinamo"nun heyətində SSRİ çempionu olub. 1981-ci ildə Kuboklar kubokunun (indiki Avropa Liqası) finalında Almaniya Demokratik Respublikasının "Karl Teycc" komandasına 2-1 hesabı ilə qalib gələn dinamoçular fəxri titula sahib çıxıblar. Hər iki nailiyyətin qazanılmasında Qutsayevin misilsiz xidmətləri olub. Məşhur hücumçu futbolçu karyerasını 1986-cı ildə başa vurub.

O dövrdə rəqib komandaların bir problemi vardı: Qutsayevin qarşısını necə almalı?

Yüksək texnikaya və qeyri-adi driblinqə malik Qutsayevin qarşısını almaq əksər hallarda ancaq onu yıxmaqla mümkün olurdu. Kote Maxaradzenin dediyi kimi, yerindən güllə kimi start götürməsi onu başqalarından fərqləndirirdi. Fintləri və keçidləri heyrət doğururdu. Bu keyfiyyətləri ilə o, daim müdafiəçiləri çaş-baş salırdı. Yıxıldığına görə tez-tez zədə alırdı. SSRİ dövründə komandasına ən çox penalti qazandıran hücumçu olub. Yeri gəlmişkən qeyd etmək istərdim ki, o dövrdə "Neftçi" komandasının heyətində Rafiq Əlizadə də tez-tez cərimə meydançasında yıxılaraq komandamıza penalti qazandırardı. Baş məşqçi Əhməd Ələsgərov R.Əlizadənin fiziki göstəricilərini nəzərə alaraq öz mülahizəsinə uyğun onu ikinci hissədə meydana buraxardı. Əlbəttə, hər ikisi fərqli futbolçular olublar və hər bir halda onları müqayisə etmək fikrim yoxdur. Müasir dövrdə isə Eden Hazard mənə Qutsayevi xatırladır.Ümumiyyətlə, Qutsayev 1970-1980-ci illərdə SSRİ-nin ən diqqət çəkən hücumçusu olub. 1991-ci ilin əvvəlində Qutsayev ilk gürcü futbolçu kimi Kiprə işləməyə getdi (Qutsayevdən sonra daha iki gürcü futbolçu da məşqçi kimi Kiprdə çalışmışdı - M.İ.).





## Sahmat festivalı və futbolçu ilə görüş

Elə həmin ilin noyabrında ABŞ-ın "Ankoric-Tayms" və "Komsomolskaya Pravda" qəzetlərinin oxucuları arasında yazışma ilə keçirilən qiyabi şahmat oyununun ən fəal üç iştirakçısından biri kimi nümayəndə heyətinin tərkibində Kiprə şahmat festivalına getməli oldum. Qutsayevin bu ölkədə işləməsindən məlumatlı idim. Nədənsə, onunla görüşəcəyimə əminlik yarandı.



Qutsayevlə tanışlığım çox sadə bir şəkildə baş tutdu. Belə ki, xoş bir təsadüfdən həmin ərəfədə seçmə qrup mərhələsində Kipr yığması SSRİ komandasını qəbul edirdi. Nikosiyada keçirilən oyundan əvvəl "Komsomolskaya pravda" qəzetinin əməkdaşlarının köməkliyi sayəsində mən tanınmış idman şərhçisi Vladimir Pereturinlə görüşdüm. Fikrimi ona bildirəndə, məmnuniyyətlə mənim xahişimi yerinə yetirdi. Oyunu meydandan canlı izləməyə gəlmiş Qutsayevlə Pereturinin vasitəçiliyi ilə görüşüb tanış oldum. Matç 3-0 hesabı ilə Sovet futbolçularının qələbəsi ilə başa çatdı. SSRİ komandası elə həmin axşam da geri döndü. Oyundan sonra Qutsayevlə belə qərara gəldik ki, səhəri günü Larnaka şəhərində görüşək. Bizim yığcam nümayəndə heyətimiz yaşadığımız Limassol şəhərinə qayıtdı. Onu da qeyd edim ki, Kiprdə şəhərlər birbirinə çox yaxın məsafədə yerləşir.

## "Real"a keçmək təklif olunsa da...

Açıq havada kafelərin birində oturduq. İlk baxışdan bir qədər ciddi, qaraqabaq təsir bağışlayan Qutsayev, əvvəlcə, mənim şəxsiyyətim ilə maraqlandı. Müəyyən məlumatları dinlədikdən sonra:

- Prokurorluq hara, yaradıcılıq hara, şahmat hara. Üstəlik idmanın əksər növlərindən xəbəri olan, ən başlıcası futbol bilicisi, əsil azarkeş. Deyəsən, maraqlı bir şəxsiyyətlə tanış olmuşam - deyərək, üzünə təbəssüm gətirdi.

Daha sonra özü haqqında məlumat verərək bildirdi ki, hələ 1981-ci ildə Madriddə futbol turnirinin ən yaxşı oyunçusu seçilmişdi. Elə o vaxt ona "Real"a keçmək təklif olunmuşdu. Lakin Sovet dövründə bu, mümkün ola bilməzdi. Tblisidə iqtisadiyyat fakültəsini bitirmişdi. Avtomobil həvəskarı idi. "Dinamo"dakı uğurlarına görə "Volqa" avtomobili hədiyyə ediləndə sanki dünyanı ona bağışlamışdılar.

- Bunları görürsən də - deyə, kafenin ətrafında satışa qoyulmuş müxtəlif avtomobilləri göstərdi. Çalışacam, qayıdanda bunlardan birini özümlə aparım. İlin əvvəlində bura gələndə, əvvəlcə, "Anortosis" komandasında məşqçi köməkçisi kimi fəaliyyətə başladım. İndi isə bu komandanın baş məşqçisiyəm. Çox güman ki, müqaviləmi daha bir mövsüm də artıracaqlar. Buralar çox gözəldir. Qış keçmir, noyabr ayıdır, amma çimirlər. Günəş də üzümüzə gülür, hərçənd ki, elə də istiliyi yoxdur.

Mən də hazırcavablıq edərək dedim:

- Eybi yoxdur, təki ürəyimiz isti olsun.

- Dərhal hiss olunur ki, romantik adamsız. Yaxşı cavab verdiniz - deyə, həmsöhbətim ani fikrə gedib qəflətən soruşdu:

- Sən tam azərbaycanlısan?

- Nədir ki, yəqin, adım səni çaşdırır? Əlbəttə, təmiz azərbaycanlıyam. Atam da, anam da azərbaycanlıdır.

- Yox, elə-belə soruşdum. Axı Bakı beynəlmiləl şəhərdir.

Bu dəfə mən "borclu qalmadım".

- Deyirlər, sən osetin mənşəlisən, elədir?

- Yox, mən gürcüyəm. Valideynlərim də, arvadım da gürcüdür. İki oğlum var.

Axşam tərəfi yaxınlıqda olan bara keçdik. Əlbəttə, onun təşəbbüsü ilə.

-Kiprdə bütün barların ortasında bilyard stolu yerləşir. Turistlərə görə barlar həmişə dolu olur. Nə qədər ki, sakitlikdir, gəl kənarda özümüzə yer tapıb əyləşək - deyə, Qutsayev iri sütunun arxasında tam görünməyən stola tərəf getdi.

## Ürəklərə yol tapmaq hər futbolçuya nəsib olmur

Biz yenə futbolla bağlı söhbətimizi davam etdirirdik. O, tez-tez zədə almağından danışaraq məlumat verdi ki, iki dəfə dizindən əməliyyat olunub. Kote Maxaradzedən bir neçə maraqlı epizod danışdı (onlardan birini "Qo-o-ol!" kitabıma daxil etmişəm - M.İ.). Daha sonra mən "Dinamo" ilə Bakıdakı axırıncı oyunu yada saldım:



- Qazzayev ötürmə etdi, sən qol vurdun, sənin ötürmən ilə də Qazzayev qol vurdu. Necə deyərlər, bir-birinizə assisentlik etdiniz. Həmin oyunda bir-birinizi əla anlayırdınız. Oyun 2-2 hesabı ilə, heç-heçə bitdi.

- Valera həmişə fərqli, özünəməxsus futbolçu olub. Yaxın münasibətlərimiz artıq dostluğa çevrilib. Dostluğumuz bu gün də davam edir.

O, danışdıqca arabir fikrə dalırdı. Mənalı baxışlarının sakit parıltısı vardı. Söhbətin gedişində mən "Sovetskiy sport" qəzetinin onun haqqında yazdığı iki kövrək, publisistik məqaləni Qutsayevin yadına saldım. Çox təsirləndi və mənə təşəkkürünü bildirdi. Saat təxminən 22 radələrində mən qaldığım şəhərə məsafə amilini də nəzərə alıb getmək istədiyimi dedim. Qutsayev həm Larnakada, həm də Nikoziyada yaşayış yeri olmasını bildirərək qalıb səhər tezdən getməyi təklif etdi. Mənimlə birlikdə qalanların narahat olacağını və məni gözləyəcəklərini əsas gətirərək qayıtmağımın vacibliyini vurğuladım. O vaxtlar hələ əl telefonları yox idi. Axşam vaxtı başqa şəhərlə əlaqə yaratmaq da əlavə qayğı və çətinlik törədərdi.

Xudafisləşib ayrılarkən Qutsayevə bildirdim ki, bu görüş nəinki Kipr, ümumiyyətlə, indiyə qədər olan səfər təəssüratlarımın ən maraqlısı və yadda qalanı olacaq.

Həqiqətən də, sevincimdən qanadlanmışdım. Axı kumirim olan məşhur futbolçu ilə görüşmüşdüm.

... Larnakadan Limassoldakı yaşadığım "Karavella" hotelinə taksi ilə qayıtdım...

Həmin günün, o görüşün təəssüratları, xırdalıqları, incəlikləri indi də yaddaşımda olduğu kimi qalır.

Sonralar da Qutsayevlə bağlı məlumatları, yenilikləri mütəmadi olaraq izləyirdim. O, 1991-1994-cü illər ərzində Kiprdə çalışdı. Tbilisi Dövlət Universitetinin hüquq fakültəsini bitirərək ikinci təhsilini də aldı. Avtomobil həvəskarı olan Qutsayevə dostu Qazzayevin təşəbbüsü ilə Vladiqafqazda "Mersedes" hədiyyə olundu.

Bu günə qədər hələlik bir daha görüşmək bizə nəsib olmayıb. Yəqin ki, onun Bakıya yolu düşməyib. Gürcüstanın veteran futbolçuları tez-tez Bakıya müxtəlif tədbirlərə gəlsələr də, nədənsə Qutsayevi bu görüşlərdə görməmişəm.

Həmçinin uzun müddət idi ki, mən də Tbilisiyə gedə bilmirdim. Son iki ildir ki, yolumu Tbilisiyə salıram. Lakin müəyyən obyektiv səbəblərdən məşhur veteran futbolçunu axtarıb tapmaq imkanları əldə etmək mümkün olmur. Ancaq ümidliyəm ki, biz yenə də görüşəcəyik.

Qutsayev həm həyatda, həm də futbolda özünəməxsus iz qoyub. Ürəklərə yol tapmaq heç də hər futbolçuya nəsib olmur. Bu - bacarıq, ustalıq, istedad, digər şəxsi keyfiyyətlər tələb edir. Bütün bu keyfiyyətlərə malik Qutsayev ürəklərə yol tapan futbolçu olub. Elə özünə xas olan keyfiyyətlər də ona ümumxalq hörməti, məhəbbəti, azarkeş sevgisi qazandırıb. Belə əvəzsiz futbolçular daim xatırlanmağa layiq olanlardır!




# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

***OCEP - Olympic Culture and Education Programme - Olimpiya mədəniyyəti və təhsili proqramıdır. Azərbaycan Milli Olimpiya Komitəsinin təşkil etdiyi bu proqram Beynəlxalq və Avropa Olimpiya Komitələri tərəfindən bəyənilmiş və onun Avropa Gənclər Olimpiya Festivalı ərəfəsində və dövründə həyata keçirilməsi nəzərdə tutulmuşdu. Proqram üzrə işlər 2018-ci ildən başlanmış, 2019-cu ilin iyulunda tamamlanmışdır. Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri Cəmaləddin Rəhmanovun MOK-un marketinq idarəsinin müdiri Mehman Kərimovla söhbətində proqramın təşkili, irsi və gələcəkdə Olimpiya Hərəkatı çərçivəsində davam etdirilməsi, beynəlxalq status alma potensialı haqqında maraqlı məqamlara toxunulmuşdur.***

**Cəmaləddin Rəhmanov (Milli Olimpiya Komitəsinin nəşriyyat və informasiya idarəsinin müdiri):**

- Mehman müəllim, bu il Bakıda Avropa Yeniyetmələrinin Olimpiya festivalı keçirildi. Bu festivalda bir tədbir - OCEP (Olimpiya mədəniyyət və təhsili proqramı), deyərdim ki, yadda qalan və onu əvvəlkilərdən fərqləndirən, beynəlxalq, qitə, eləcə də iştirakçı Milli Olimpiya Komitələrinin rəsmi nümayəndələri, habelə idmançılar və ictimaiyyət tərəfindən olduqca rəğbətlə qarşılanan hadisə oldu. Hesab edirəm ki, həm Beynəlxalq, həm də Avropa Olimpiya Komitəsinin diqqətini cəlb edən bu proqram-tədbir Olimpiya Hərəkatında özünə xüsusi yer qazanmaq potensialını nümayiş etdirdi və gələcəkdə onun AYOF hüdudlarını aşaraq Olimpiya Oyunları və ümumiyyətlə, mötəbər kompleks idman yarışlarının hər birinin ayrılmaz hissəsi olmaq imkanını sübut etdi. Bunun bariz nümunəsi və ya təsdiqi kimi, biz Minskdə təşkil olunmuş II Avropa Oyunlarında OCEP sınağını yada sala bilərik. Təbii ki, söhbətimizdə OCEP-lə bağlı ən müxtəlif məsələləri əhatə etməyə çalışacağıq. Ancaq istərdim ki, söhbətimiz müəyyən bir məntiqi ardıcıllıqla getsin, OCEP-i fərqləndirən, onun unikallığını göstərən amilləri üzə çıxarmağa çalışaq, bu tədbirin Beynəlxalq Olimpiya Komitəsinin uzun illər axtarışında olduğu bir proqram kimi təsdiqini tapmasını və başqa vacib məsələləri aydınlaşdıraq. Ona görə də, əvvəlcə,"OCEP ideyası necə yarandı? OCEP nədir və onun əsasında Olimpizmin hansı prinsipləri, hansı Olimpiya idealları durur?" kimi suallara cavab axtaraq.

**Mehman Kərimov (Milli Olimpiya Komitəsinin marketinq idarəsinin müdiri):**

- Olimpiya və mədəniyyət məsələlərinin kökü, təbii ki, qədimdir. Bu, antik olimpiadalardan başlamış və müasir Olimpiya Oyunları dövründə davam etdirilən hadisədir. Amma konkret proqram kimi, hesab edirəm ki, Yeniyetmələrin I Olimpiya Oyunlarında, daha doğrusu, Sinqapur Oyunlarında bir qədər fərqli və geniş aspektdə tətbiqini tapmışdır. Hətta bu proqram yeniyetmələrin ilk Olimpiya Oyunlarını keçirəcək şəhərin təyinində də bir seçim kriteriyası olmuşdur. Bilirsiniz ki, bu oyunlara ev sahibliyi edən şəhərin seçilməsinin final mərhələsində Moskva və Sinqapur iştirak edirdi. Sinqapurun seçilməsində, deyərdim ki, məhz onların Beynəlxalq Olimpiya Komitəsinə (BOK) təqdim etdiyi ərizə və sənədlər, nəzərdə tutulmuş tədbirlər planında təklif olunan mədəniyyət və təhsil proqramı həllledici rol oynadı. Yəni Sinqapura üstünlük verilməsinin səbəbi oldu. Doğrudur, Sinqapur proqramı Olimpiya təhsilini bir qədər dar planda nəzərdə tuturdu, daha çox mədəniyyət proqramı olaraq təqdim edilmişdi. Əslində belə olması da təsadüfi deyildi. Bu dövrə qədərki təcrübədə Olimpiya və mədəniyyət ilə Olimpiya təhsili məsələləri heç zaman tam şəkildə birləşdirilməmiş, əlaqələndirilməmişdi. Bu baxımdan BOK da həmin proqramı mədəniyyət və təhsil proqramı kimi dəstəklədi və Milli Olimpiya Komitələrinə onunla bağlı tövsiyələrini verdi. Tövsiyələrdə yeniyetmələrin Olimpiya Oyunlarına hazırlıq dövründə işi yalnız yarışlara diqqət ayırmaqla məhdudlaşdırmamaq, eyni zamanda, mümkün qədər mədəniyyət sahəsində tədbirlər həyata keçirmək, Sinqapur Oyunlarının proqramına fəal şəkildə qoşulmaq təklif olunurdu. Bəllidir ki, Azərbaycan Milli Olimpiya Komitəsi BOK-un tövsiyələrinə xüsusi önəm verir. Ona görə də ölkəmiz Yeniyetmələrin I Olimpiya Oyunlarına yalnız yarış iştirakçısı qismində qoşulmaqla kifayətlənmədi, haqqında söhbət gedən proqramı yüksək səviyyədə dəstəklədi, Milli Olimpiya Komitəsi 2010-cu ildə bir sıra mədəniyyət tədbirləri həyata keçirdi. Yeniyetmə idmançılarımız yalnız yarışlara deyil, həm də Sinqapur proqramına hazırlaşdılar. Sinqapurda bizim həm idmançılarımız, həm də nümayəndə heyətimizin digər üzvləri bu proqramda fəal iştirak etdi. Elə o zamandan bizdə belə bir fikir formalaşdı ki, əgər nə vaxtsa, qismət olarsa, Azərbaycanda keçiriləcək mötəbər yarışlar çərçivəsində belə və ya oxşar proqram reallaşdıraq. Bakıda təşkil olunan IV İslam Həmrəyliyi Oyunları çərçivəsində İslam mədəniyyəti ilə Olimpiya dəyərlərini təbliğ və öyrənmə məqsədilə OCEP formatında başqa ad altında - İslam mədəniyyəti və təhsiliproqramını təşkil etmək ideyasını ortaya atmışdıq. Nəzərdə tutmuşduq ki, Oyunlar çərçivəsində bu proqram vasitəsilə 57 iştirakçı ölkənin gənclərinə İslam dəyərlərini, Olimpiya dəyərlərini, onların bir-biri ilə bağlılığını çatdıraq. Bu ideya MOK, Gənclər və İdman Nazirliyi, həmçinin İslam Həmrəyliyi İdman Federasiyasının İcraiyyə Komitəsi tərəfindən bəyənilmişdi. Lakin bizdən asılı olmayan səbəblərdən həmin proqramın həyata keçirilməsi baş tutmadı. Ancaq Olimpiya mədəniyyət və təhsil proqramını reallaşdırmaq istəyimiz güclü idi və biz onun təkmilləşdirilməsi, haçansa tətbiq olunması üzərində daim düşünürdük.



Şükürlər olsun ki, Belarus Respublikasında 2019-cu il II Avropa Oyunlarına ev sahibliyinin Minskdə təşkili ilə bağlı qərar qəbul olunduqdan sonra Avropa Olimpiya Komitəsi eyni ildə keçirilməli olan qitə Yeniyetmələrinin Olimpiya Festivalı (AYOF) üçün Bakını seçdi. Beləliklə, OCEP ideyası yenidən aktual şəkildə gündəmə gəldi. Bir qədər də dəqiq desəm, hesab edirdik ki belə proqramın həyata keçirilməsi üçün tarixi şərait yaranıb. Onu da qeyd edim ki, indiyədək AYOF təcrübəsində belə bir mədəniyyət və təhsil proqramı yer almamışdı. AYOF-u keçirmiş heç bir ölkədə bu cür tədbir olmamışdı. Biz qısa müddətdə bu proqramı yenidən işlədik, onu AYOF iştirakçılarının yaş səviyyəsinə (14-18 yaş) uyğunlaşdırdıq. Bakı-2019 Təşkilat Komitəsi, Əməliyyat komitəsi və başqa təşkilatlarla, xüsusən Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi ilə tərəfdaşlıq qurduq, proqramı BOK-un İdman Həmrəyliyi Komitəsinə təqdim etdik. Sevindiricidir ki, BOK-da proqram yüksək səviyyədə bəyənildi, icrası təsdiq edildi və hətta bu işin tam həcmdə həyata keçirilməsi üçün ona yardıma AOK-un Avropa Birliyindəki ofisini də cəlb etdi.



**C.R.:** Mehman müəllim, söhbətimizin bu yerində geriyə - Sinqapur mədəniyyət proqramına qayıtmaq, düşünürəm ki, vacibdir. Siz 2010-cu ildə Sinqapur Oyunlarında Azərbaycan nümayəndə heyətinin şef-de-misyonu kimi məsul bir vəzifəni yerinə yetirmişiniz. Olimpiya Oyunlarında şef-de misyon olmaq Olimpiya Hərəkatı iştirakçılarının karyerası üçün prioritet hadisə hesab olunur. BOK öz üzvlərinin, ümumiyyətlə Olimpiya Hərəkatı ilə bağlı olan şəxslərin bioqrafiyasını hazırlayarkən bu faktı mütləq qeyd edir. Bunu deməklə şef-de-misyon vəzifəsinin nə dərəcədə vacib və məsul olduğunu bir daha nəzərə çatdırıram. Yadımdadır ki, Azərbaycan nümayəndə heyəti Sinqapura yola düşməzdən əvvəl, siz onlar üçün xüsusi bir təqdimat keçirdiniz və bu təqdimatda ən müxtəlif məsələlər, o cümlədən də Yeniyetmələrin I Yay Olimpiya Oyunlarının mədəniyyət proqramı barədə də geniş məlumat verdiniz. Nümayəndə heyəti Sinqapur hava limanından Olimpiya Kəndinə gedərkən də avtobusda həm Oyunların, həm də mədəniyyət proqramının mahiyyəti və əhəmiyyəti haqqında danışdınız. Olimpiya Kəndində deyil, otellərdə yerləşəcək şəxsləri mədəniyyət proqramında fəal iştirak etməyə çağırdınız. Azərbaycan nümayəndə heyətinin rəhbərlərinin idmançılarımızla Olimpiya Kəndində görüşündə orada yaratdığınız "Azərbaycan evi"ndə mədəniyyətimizlə bağlı bir sıra eksponatlar, əşyalar, stendlər, milli mətbəximizdən olan şirniyyatlar, paxlava, şəkərbura və s. vardı. İdmançılarla görüşdən sonra başqa ölkələrin mədəniyyəti nümayiş etdirilən bir sıra çadır və otaqlarda da olduq. Siz idmançıların Sinqapurda Olimpiya Kəndindən kənarda təşkil olunmuş mədəniyyət tədbirlərində iştirakını da təmin etmişdiniz. Bununla bir cəhəti qeyd etmək istəyirəm ki, Sinqapur mədəniyyət proqramında hər ölkə öz mədəniyyətini nümayiş etdirirdi və bu mədəniyyətlə əsasən kənddə yaşayanlar tanış olmaq imkanına malik idi. Onu da deyim ki, Olimpiya Oyunlarının keçirildiyi dövrdə təşkil olunan "Azərbaycan Günləri"ndə belə təcrübədən, yəni ölkəni, onun mədəniyyətini təbliğ etməkdən istifadə edilib. Bu, Azərbaycanın iştirak etdiyi bütün Olimpiya Oyunlarında olub. Başqa Milli Olimpiya Komitələri də belə günlər təşkil edirlər. Fərq ondadır ki, belə günlərdə ölkə mədəniyyəti ilə tanışlıq yalnız dəvət edilənlərənəsib olurdu. Sinqapurda isə iştirakçı ölkələrin öz mədəniyyətlərini təbliğ və nümayiş etdirməsi təşkil edilmişdi, mədəni bir proqram kimi Oyunların tərkib hissəsi idi. Bakı-2019-un OCEP proqramı isə xeyli dərəcədə fərqli, geniş və maraqlı proqram idi. Mən Sinqapur mədəniyyət proqramının qısaca aydınlaşdırmağa cəhd etdim. Bu, düşünürəm ki, OCEP-in mahiyyətini və onun OCEP-ə qədər olan mədəniyyət proqramlarından fərqini açmağa, kömək edər.

**M.K.:** OCEP ixtisarı ingilis dilində olan Oyimpic Culture and Education Proqram" adının inisial hərfləri əsasında yaradılıb və dilimizə "Olimpiya mədəniyyət və təhsil Proqramı" kimi tərcümə oluna bilər. OCEP-in birinci və başlıca fərqli cəhəti onun mədəniyyət və təhsili vəhdətdə götürməsidir. Yəni bir proqram çərçivəsində oyunlarda, bizim halda festivalda iştirak edən ölkələrin mədəniyyəti və Olimpiya Hərəkatı təbliğ olunmaqla yanaşı, eyni zamanda bir növ tədris olunaraq öyrənilir. İkinci fərqləndirici cəhət, proqrama orta məktəb şagirdlərinin və müəllimlərinin cəlb edilməsidir. Üçüncüsü, iştirakçı ölkənin mədəniyyət və Olimpiya Hərəkatının həmin ölkənin öz idmançıları tərəfindən deyil, Azərbaycan məktəbliləri, daha dəqiq desək, məktəb və onun şagirdlərinin təqdim etməsidir. Bu mexanizm bir qədər mürəkkəb göründüyündən onu bir qədər açmaq istəyirəm. Proqramın təşkil strukturu belə idi. Əvvəlcə, oyunları keçirən ölkədə, yəni Azərbaycanda oyunlarda iştirak edəcək ölkələrin sayı qədər məktəb seçilir. Bu məktəblərdən biri bilavasitə öz ölkəsini, yəni Azərbaycanı təmsil edir. Digər məktəblərin hər biri bir iştirakçı dövləti təmsil edir. Burada biz məktəblərin qardaşlaşması məsələsini də qoymuşduq. Yəni Azərbaycanda proqramda iştirak edəcək məktəblər seçildikdən sonra hər məktəbin iştirakçı ölkələrdən birinin bir məktəbi ilə əlaqə yaratması, qardaşlaşması təmin edilməli idi. Azərbaycandan iştirakçı ölkələrin sayı qədər məktəb seçimi olduğu kimi, başqa ölkələrin hər birindən bir məktəbin seçimi nəzərdə tutulurdu. Proqramın təşkili prosesinin, deyərdim ki, ən çətin mərhələlərindən biri bu işin həyata keçirilməsində özünü göstərdi. Fikirlərimi daha konkret və dəqiq ifadə etmək üçün Bakı-2019 AYOF-da istifadə etdiyimiz təşkil prosesinə əsaslanmaq istərdim. Festivalda Azərbaycan da daxil olmaqla 49 ölkənin idmançıları iştirak edirdi. Buna müvafiq olaraq biz Bakının 49 məktəbini seçdik. Həmin məktəblərdən biri Azərbaycanı, digər məktəblərdən biri, deyək ki, İtaliyanı, başqa biri İspaniyanı, digəri Almaniyanı və sair təmsil edəcəkdi. Eyni zamanda, məsələn, İtaliyadan bir məktəbin Azərbaycanda İtaliyanı təmsil edəcək məktəblə qardaşlaşmasını təmin etmək lazım gəlirdi. Oxşar qaydada digər ölkələrin hər birindən bir məktəbin müvafiq şəkildə Azərbaycan məktəbi ilə əlaqələndirilməsi təşkil olunmalı idi. Deyək ki, Almaniyanın bir məktəbi Azərbaycanın Almaniyanı təmsil edəcək məktəbi, İspaniyadan bir məktəb Azərbaycandan İspaniyanı təmsil edəcək məktəblə və s. əlaqəsini qurmaq lazım gəlirdi.



*(ardı 6-cı səhifədə)*

# OCEP - Olimpiya Hərəkatının yeni mədəniyyət və təhsil körpüsü

(əvvəli 5-ci səhifədə)

**C.R.:** Aydın görünür ki, OCEP proqramının ilkin təşkili mərhələsində 50 Azərbaycandan, AYOF-da iştirak edəcək 49, Avropa ölkəsinin hər birindən bir məktəbin seçimi tələb olunmuşdur. Fikrimcə, bu seçimi aparmaq özü çox mürəkkəb bir mexanizmdir və burada müəyyən kriteriyalara əsaslanmaq vacib şərt idi. Əks təqdirdə bu və ya digər məktəbin nə üçün seçilməsini izah etmək olmazdı. Azərbaycan məktəblərinin seçimi üçün belə kriteriyalar vardımı? Güman edirəm ki, kriteriyaların müəyyənləşdirilməsi də məsələnin həlli ola bilməzdi. Çünki yalnız Bakı məktəblərini bu kriteriyalarla yoxlamanın özü həm mürəkkəb, həm də çox vaxt tələb edən iş olacaqdı. OCEP proqramının Beynəlxalq Olimpiya Komitəsinə təqdim olunub müsbət cavab almağınızdan sonra sizin maksimum il yarım vaxtınız qala bilərdi. Bu məhdud vaxtın da 2-3 ayını Azərbaycanda və daha iki-üç ayını xaricdə məktəb seçiminə ayırmaq proqramın reallaşmasını mümkünsüz edə bilərdi.




**M.K.:** Məsələ ondadır ki, bu proqramın araya-ərsəyə gəlməsi, qeyd etdiyim kimi, təsadüfi deyildi. Əvvəla, Bakıda bir sıra məktəblərlə müxtəlif proqramlar çərçivəsində əməkdaşlıq etmişdik və böyük birgə iş təcrübəsi qazanmışdıq. Həmin məktəblərin çoxu OCEP üçün seçim kriteriyalarımıza cavab verirdi. Şübhəsiz ki, bu məktəbləri seçim siyahımıza daxil etmişdik. Bundan başqa, Təhsil Nazirliyi ilə tərəfdaşlığımız uğurlu oldu. Nazirlik bizə 60-ya yaxın məktəb təklif etdi. Onu da qeyd edim ki, OCEP-in təşkili üçün biz xüsusi ekspert qrupu yaratmışdıq. Şükürlər olsun ki, ekspertlərin seçimində də yanılmamışdıq, onlar bizə böyük kömək göstərdilər, proqramın həyata keçirilməsində zəhmətləri də çox oldu. Nəzərə almışdıq ki, bu və ya digər məktəbdən olan ekspert öz işlədiyi məktəbi seçə bilər. Ona görə də qabaqcadan razılığı gəlmişdik ki, bu hal olmasın. Yəni ekspertin öz məktəbi seçim siyahımıza daxil edilmirdi. Kriteriyalara gəlincə onlar təbii ki, vardı. Bu kriteriyalar hansılar idi? Birincisi, məktəbin potensial imkanları, onun bu və ya digər tədbirdə iştirakının mümkünlüyü, eləcə də səmərəliliyi təyin olunmalı idi. Bu meyarın özü də müxtəlif amillərin mövcudluğunu nəzərdə tuturdu. Əvvəla, məktəbdə oyun və yarışların təşkili üçün tələblərə cavab verəcək idman zalının fəaliyyət göstərməsi lazım gəlirdi. İkincisi, məktəbdə təhsil səviyyəsinin, şagirdlərin xarici dildə, xüsusən ingilis dilində danışıq bacarıqlarının yüksək olması nəzərə alınmalı idi. Dil amili şagirdlərin proqramın reallaşması prosesində qardaşlaşmış xarici məktəblə sosial şəbəkə, skayp, feysbuk, tvitter və instaqramdan istifadə etməklə kommunikasiya yaratmasında olduqca əhəmiyyətli rol oynayacaqdı. Buradan daha bir amilin zəruriliyi ortaya çıxırdı. Seçilmiş məktəbdə müasir texnologiyalar, kompüterlərlə təchiz edilmiş xüsusi sinif, yaxud laboratoriyalar olmalı idi. Məktəbin saytının, feysbuk səhifəsinin mövcudluğu və ya yaradılması vacib şərt kimi özünü göstərirdi.

Başqa bir kriteriyaya görə, təhsil ocağında şagirdlərin dərsdənkənar vaxtlarda müəyyən bacarıq və biliklərə yiyələnməsi məqsədi ilə yaradılmış əmək, musiqi, rəqs, ədəbiyyat, coğrafiya və s. dərnəklərinin fəaliyyət göstərməsinə üstünlük verilirdi.

Mən orta təhsil müəssisələrimizdə çalışan müəllimlərin tədris və təlim bacarıqlarına kölgə salmaq niyyətində deyiləm. OCEP proqramının həyata keçirilməsi prosesində bizə elə müəllimlər daha çox kömək edə bilərdi ki, onların müəyyən dərəcədə kütləvi olan tədbirləri təşkil etmək, lazım gələn iş və mövzu ilə bağlı operativ və sürətli təhsili təmin etmək bacarıqları yüksək olsun. Eyni zamanda, məktəbin idman, musiqi, rəqs, rəssamlıq və başqa sahələrdə məktəbdənkənar uğurları olan şagirdlərinə də ehtiyacımız vardı. Belə bacarıqlar istər ölkəmizin, istərsə də təmsil ediləcək Avropa dövlətinin təqdimatında xüsusi önəm daşıyacaqdı.

**C.R.:** Mehman müəllim, sizin məlumatınız məktəblərin seçim kriteriyalarının proqramın tələblərinə görə düzgün və məntiqi əsaslandırılmış şəkildə müəyyənləşdiriməsini bir daha təsdiq edir və söhbətdə bütün meyarlardan danışmağa, zənnimcə, ehtiyac qalmadı. Aydın oldu ki, proqrama qatılmış məktəblər çətin və gərəkli seçimdən keçmişlər. Ancaq siz söhbət əsnasında ekspertlərdən bəhs etdiniz və onların məktəblərin seçimi prosesində aparıcı rol oynadıqlarını qeyd etdiniz. Belə olan halda ekspertlərin seçimi və ya təyini də OCEP-in vacib manqalarından biri olmuşdur. Bundan əlavə, Avropa ölkələrinin hərəsindən bir məktəbin seçilməsi prosesi də maraq kəsb edir. Hesab edirəm ki, bu seçimdə kriteriyaları diktə etmək mümkün deyildi və proses artıq OCEP-in Təşkilat Komitəsinin səlahiyyətlərindən, yəqin ki, kənarda dururdu.

**M.K.:** Təbii ki, Avropa ölkələrindən məktəblərin seçilməsi və onların OCEP-ə qoşulmasının təmin edilməsi birinci mərhələdəki işlərimizin mürəkkəb bir hissəsi idi və ona güclü texniki dəstək tələb olunurdu. Biz bu problemin üzərində ciddi düşünmüş, texniki dəstəyi Milli Olimpiya Komitələrindən almağı planlaşdırmışdıq. Azərbaycan Milli Olimpiya Komitəsi adından qitənin digər MOK-larına proqrama qoşulmaq üçün öz ölkələrindən bir məktəbin seçilməsində bizə kömək göstərilməsi ilə bağlı məktublar göndərdik. Bu məqamda AOK-a bir daha minnətdarlığımızı bildirməliyik. Çünki proqramı yüksək səviyyədə dəstəkləyən AOK-da xarici məktəblərin seçilməsi prosesinə qoşuldu. Demək olar ki, bizim məktubla müraciətlərimizlə paralel AOK-dan da üzv ölkələrin MOK-larına, demək olar ki, eyni məzmunlu məktublar göndərildi. Bu da OCEP-in həm rəsmi statusunu təsdiq etdi, həm də MOK-lar məktəb seçimini qitə qurumunun bir növ tapşırığı kimi qəbul etdilər. Bu işimizə böyük kömək oldu. Əksər MOK-lar öz ölkələrindən məktəb seçməkdə bizə kömək etdilər. Proses zamanı o da aydın oldu ki, qitənin bəzi ölkələrində yerli MOK bu işi çözə bilmir. Yəqin ki, bunun müxtəlif səbəbləri ola bilər. Məsələn, yerli MOK ilə müvafiq ölkənin təhsil qurumu arasında əlaqə və əməkdaşlığın zəifliyi, yaxud məktəb seçimi səlahiyyətinin MOK-a aid olmaması və s. Çıxış yolunu Avropa ölkələrinin Azərbaycandakı səfirliklərinə, konsulluqlarına müraciət etməkdə gördük və gözlədiyimizdən də yaxşı nəticələr aldıq. Məlum oldu ki, səfirliklər həm mədəniyyət sahəsində qarşılıqlı əməkdaşlığa çox əhəmiyyət verirlər. Təsadüfi deyil ki, bir sıra səfirliklər öz ölkələrindən məktəbin seçilməsinə kömək etməklə yanaşı, Azərbaycanda onların ölkəsini öyrənən məktəblə də birbaşa əlaqə yaratmaq, onların işinə yardım göstərmək istəyirlər. Sevinirik ki, OCEP dövründə bir sıra Avropa ölkələri ilə Azərbaycan məktəbləri arasında qarşılıqlı əlaqələr də yarandı. Belə əlaqələr yalnız OCEP dövrü ilə məhdudlaşmadı və indi də davam edir. Hesab edirəm ki, bunu OCEP irsinin qorunması kimi dəyərləndirmək olar.

OCEP-in təşkilində, qeyd etdiyim kimi ekspertlərin böyük rolu olmuşdur. Bizim uğurumuzu təmin edən amillərdən biri də o oldu ki, fiziki tərbiyə, ingilis dili müəllimləri və mədəni tədbirlərin təşkilində böyük təcrübəsi olan mütəxəssislərdən ibarət ekspert qrupu yaratmağımız oldu. Ekspertlərin seçimində biz əvvəlki təcrübəmizə əsaslandıq. Müxtəlif proqramların təşkilində vaxtı ilə çiyin-çiyinə çalışdığımız, işinə, təcrübəsinəmin olduğumuz şəxslərin seçilməsinə üstünlük verdik. Bu seçimdə Təhsil Nazirliyi də öz köməyini əsirgəmədi, belə mütəxəssisləri təklif etdi. İndi, proqram başa çatandan sonra, hesab edirəm ki, ekspertlərin seçimində yanılmamışıq və Milli Olimpiya Komitəsi də gələcəkdə birgə işləmək üçün müəyyən sayda müəllim və mütəxəssisi tanıdı, hətta deyərdim ki, qazandı.

**C.R.:** Mehman müəllim, düşünürdüm ki, sizinlə bir söhbətdə OCEP haqqında tam və hərtərəfli məlumat verə bilərik. Ancaq məlum oldu ki, OCEP-in miqyası, əhatə dairəsi, təşkilinin çətinliyi, reallaşması, əldə olunan nəticələr, OCEP irsinin davamı kimi məsələlərdən danışmaq imkanı və bəlkə də üçüncü söhbətin zəruriliyini təsdiq edir. Ona görə də, gəlin birinci söhbətimizi burada yekunlaşdıraq. Hesab edirəm ki, OCEP ideyasının yaranması, Bakı-2019-da onun təşkilinin ümumi məsələləri haqqında danışdıq. Növbəti söhbətimizdə, yəqin ki, OCEP-in Bakıda necə həyata keçirilməsindən, OCEP irsindən bəhs edəcəyik.

## Voleybol komandamız reytinq cədvəlində 11-ci pillədə qərarlaşıb

Avropa Voleybol Konfederasiyası milli komandaların yeni reytinq cədvəlini açıqlayıb.

Türkiyə, Polşa, Slovakiya və Macarıstanın birgə ev sahibliyi etdiyi Avropa çempionatını 10-cu pillədə başa vuran qadın voleybolçulardan ibarət Azərbaycan millisi reytinq cədvəlində 11-ci pillədə qərarlaşıb. Yığmamızın hesabında 212 xal var.

Reytinq cədvəlinə 298 xalla Serbiya millisi başçılıq edir. İtaliya seçməsi (286 xal) ikinci, Hollandiya (282) isə üçüncü pillədə yer alıblar.

## Şpaqaçıların Özbəkistan sınağı

Özbəkistanın paytaxtı Daşkənddə şpaqa üzrə “Satellite” turniri keçirilib.

Kişi şpaqaçıların mübarizəsində ölkəmizi Kənan Əliyev, Ruslan Həsənov, Barat Quliyev və Fərrux Səfərov təmsil ediblər. Qrup mərhələsində keçirdiyi beş görüşdən üçünü qələbə ilə başa vuran Barat Quliyev onaltıdabir finalda Qırğızıstan idmançısı Bakutbek Ulu İlimə 15:10 hesabı ilə qalib gəlib. O, səkkizdəbir finalda bu ölkənin digər təmsilçisi Jumabay Ulu Danuşmana 8:15 hesabı ilə uduzub.

Qrup mərhələsində üç qələbə qazanaraq pley-offa yüksələn Fərrux Səfərov isə onaltıdabir finalda Qazaxıstan idmançısı Dmitri Aleksaninə 9:15 hesabı ilə məğlub olub. Kənan Əliyev və Ruslan Həsənov isə qrup mərhələsində beş görüşdən birində qalib gəldiklərindən pley-offa yüksələ bilməyiblər.



## Paracüdoçular üçün maarifləndirici təlim

Azərbaycanın oğlanlardan və qızlardan ibarət cüdo üzrə paralimpiya yığma komandaları üçün antidopinq mövzusunda maarifləndirici təlim keçirilib.

Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK) ofisində keçirilən tədbirdə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təlimlər üzrə meneceri Lalə Hacıyeva idmançıları dopinqlə bağlı maarifləndirib.

İdmançılara dopinq nəzarəti prosesi, məkan məlumatlarının təqdim edilməsi, qadağan edilmiş maddələr və digər məsələlərə bağlı ətraflı məlumat verilib.

Daha sonra AMADA-nın əməkdaşları AMPK-nın prezidenti İlqar Rəhimov ilə görüşüblər.

## Ölkəmizdə ilk dəfə budo-yapon döyüş sənətləri festivalı keçiriləcək




Oktyabrın 5-də Yaponiya səfirliyinin təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin əməkdaşlığı ilə Azərbaycanda ilk dəfə Bakı İdman Sarayında budo - yapon döyüş sənətləri festivalı keçiriləcək.

Festivalda karate, cüdo, kendo, aykido, ciucitsu, sumo kimi döyüş növlərinin nümayəndələri iştirak edəcəklər. “Budo” yapon döyüş sənətlərinin birləşməsidir.

Yapon mədəniyyətini və döyüş sənətlərini təbliğ etmək məqsədi daşıyan festival ziyarətçilərə müxtəlif döyüş sənətləri ilə tanış olmaq imkanı yaradacaq. Layihə çərçivəsində Yaponiya döyüş sənətinin altı növü - aykido, karate, kendo, cüdo, ciu-citsu və sumo təqdim olunacaq. Bununla yanaşı, festivalda digər ölkələrin müxtəlif döyüş sənətləri üzrə usta idmançıların çıxışları da nəzərdə tutulur.

Oktyabrın 5-də açılışı olacaq festivalda Yaponiyanın mədəniyyətinin, mətbəxinin, şirkətlərinin, idman federasiyalarının və təşkilatlarının stendlərinin sərgisi təşkil ediləcək.

# FUTBOL

## Transfer pəncərəsinin yeni sakinləri

***Artıq Avropanın aparıcı ölkələrində futbol üzrə yay transfer pəncərəsi başa çatıb, daxili çempionatlara start verilib. Səhifələrində futbolçularla bağlı transfer xəbərlərinə yer ayıran “Olimpiya dünyası” qezeti qitənin aparıcı klublarının həyata keçirdiyi transferlər barədə yekun statistik məlumatları cədvəl halına gətirib. Futbol azarkeşləri bu sayımızdan etibarən qəzetimizdə bu barədə ətraflı məlumatlar əldə edə bilərlər. Yay transfer pəncərəsi dövründə edilən transferlərin statistikasına nəzər salsaq, görərik ki, Avropa klubları ümumilikdə 1 iyun - 2 sentyabr aralığında 8935 transfer həyata keçirib. Bu, ötən illə müqayisədə 4,8 faiz çoxdur. Transferlərə xərclənən ümumi məbləğ 5,79 milyard dollardır. Bu göstəricidə isə 9 faiz artım olub. Qeyd olunan məbləğin 4,38 milyardını “böyük beşlik” klubları, 1,41 milyardını isə digər klublar xərcləyib.***



Ümumilikdə isə qış və yay transfer pəncərələri dövründə 7,31 milyard dollarlıq transfer olunub ki, bu, ötən mövsümlə müqayisədə 4 faiz artım deməkdir.Yazıya, əvvəlcə, İspaniya La Liqasından başlayaq. Bu ölkədə transfer pəncərəsi sentyabrın 2-də başa çatıb. Heç, şübhəsiz ki, ilin ən səs-küylü transferlərini lider komandalar həyata keçirib. Belə ki, yay transfer dönəminin ən hərəkətli klublarından olan “Real” bu il heyətini Hazard, Yoviç, Mendi və digər futbolçularla gücləndirib. “Real”ın əzəli rəqibi olan “Barselona” da uzun fasilədən sonra Çempionlar Liqasını qazanmaq üçün heyətinə yeni oyunçular cəlb edib. Kataloniyalılar bu il Antuan Qrizman, Frenk de Yonq, Junior Firpo kimi oyunçuları transfer ediblər.

Yay transfer pəncərəsinin ən səs-küylü xəbəri isə, şübhəsiz ki, Neymarın adı ilə bağlı idi. Yay ayları ərzində “Real” və “Barselona” klubları “qızıl qəfəs” kimi adlandırılan PSJ-yə Neymar üçün müxtəlif məbləğdə təkliflər irəli sürsə də, Fransa təmsilçisi bu təkliflərin heç biri ilə razılaşmadı. Beləliklə, Neymarın transferi 2020-ci ilə qaldı. Braziliyalı futbolçunun transferində “pəncərə bağlanana” qədər kataloniyalılardan qarşı tərəfin Dembele, Rakitiç, Semedo və 100 milyon avroluq tələbi sonda “Barselona” rəhbərliyini özündən çıxardı. Hətta azarkeşlər arasında da belə söhbətlər də gedirdi ki, PSJ bu transferin həyata keçməsi üçün “Barselona”dan Dembele, Rakitiç, Semedo və 100 milyon avrodan əlavə, Şakira və Messinin də üç oğlunu istəyir. Gülüncdür, elə deyilmi? Beləliklə, futbol azarkeşləri hər kəsi təngə gətirən bu yorucu xəbərləri gələn il də oxumalı olacaqlar. La liqanın digər aparıcı klubları da bu ilki transfer pəncərəsindən boş yerə boylanmayıblar. Juan Feliş, Lorente, Ermozo və Felipe kimi futbolçuları transfer edən Madrid “Atletiko”su bu il La Liqanı qazanmaq üçün iddiasını ortaya qoyub. Avropa Liqasında “Qarabağ”ın rəqibi olan “Sevilya” da bu il heyətini güclü futbolçularla möhkəmləndirib.

İspaniya La Liqasında hansı klubların kimləri transfer etdiyini və bu transferlərdən nə qədər qazandığı barədə statistik məlumatı oxucularımıza təqdim edirik.

*(ardı var)*




## İspaniya La Liqası 2019-2020

| Komanda | Gələnlər | Qiyməti (avro) | Gedənlər | Qiyməti (avro) |
|---|---|---|---|---|
| Barselona | Qrizman (Atletiko) | 120 milyon | Koutiyo (Bavariya) | icarə |
| | De Yonq (Ayaks) | 75 milyon | Malkom (Zenit) | 40 milyon |
| | Emerson (A. Mineyro) | 12 milyon | Silessen (Valensiya) | 35 milyon |
| | Neto (Valensiya) | 26 milyon | Suares (Selta) | 13 milyon |
| | Firpo (Betis) | 18 milyon | Alkaser (B.Dortmund) | 21 milyon |
| | Kukurelya (Eybar) | 4 milyon | Kardona (Osasuna) | 2.5 milyon |
| | | | Emerson (Betis) | 6 milyon |
| | | | Duqlas (Beşiktaş) | azad agent |
| | | | Vermalen (Vissel Kobe) | azad agent |
| | | | Palensiya (Sent-Etyen) | 2 milyon |
| | | | Kukurelya (Xetafe) | icarə |
| | | | Ortola (Tenerife) | azad agent |
| | | | Rafinya (Selta) | icarə |
| Atletiko | Juan Feliş (Benfika) | 126 milyon | Qrizman (Barselona) | 120 milyon |
| | Lorente (Real) | 30 milyon | Ernandes (Bavariya) | 80 milyon |
| | Ermozo (Espanyol) | 25 milyon | Rodri (M.Siti) | 70 milyon |
| | Tripye (Tottenhem) | 22 milyon | Martinş (Monako) | 30 milyon |
| | Felipe (Portu) | 20 milyon | Vyetto (Sportinq) | 7,5 milyon |
| | İbanez (San-Luis) | 20 milyon | Mensa (Kayserispor) | 4 milyon |
| | Lodi (Atletiko,Brazliya) | 20 milyon | Qodin (İnter) | azad agent |
| | Errera (Portu) | azad agent | Felipe Luis (Flamenqo) | azad agent |
| | | | Xuanfran (Belenenseş) | azad agent |
| | | | Moreyra (Belenenseş) | azad agent |
| Real | Hazard (Çelsi) | 100 milyon | Kovaçiç (Çelsi) | 45 milyon |
| | Yoviç (Ayntraxt) | 60 milyon | De Tomas (Benfika) | 20 milyon |
| | Militao (Portu) | 50 milyon | Ernandes (Milan) | 20 milyon |
| | Rodriqo (Santos) | 45 milyon | Sançes (Valyadolid) | icarə |
| | Mendi (Lion) | 48 milyon | Lunin (Valyadolid) | icarə |
| | Soro (Saraqosa) | 2.5 milyon | Edeqor (Sosyedad) | icarə |
| | Kubo (Tokio) | azad agent | Sebalyos (Arsenal) | icarə |
| | | | Mayoral (Levante) | icarə |
| | | | Requlon (Sevilya) | icarə |
| | | | Zidan (Rasinq) | icarə |
| | | | Defrutos (Valyadolid) | icarə |
| | | | Valyexo (Vulverhempton) | icarə |
| Valensiya | Silessen (Barselona) | 35 milyon | Neto (Barselona) | 26 milyon |
| | Qomes (Selta) | 14.5 milyon | Zaza (Torino) | 12milyon |
| | Çerişev (Vilyareal) | 6 milyon | Vezo (Levante) | icarə |
| | Valyexo (Kadiz) | 5.5 milyon | Blanko (Saraqosa) | icarə |
| | Saenz (Tenerife) | 2 milyon | Lato (PSV) | icarə |
| | Ruiz (Malyorka) | azad agent | Murilyo (Sampdoria) | icarə |
| | Ceyson (Levante) | azad agent | Abdenur (Kayserispor) | azad agent |
| | Karbonel (Kordoba) | azad agent | Saens (Selta) | icarə |
| | Manqala (M.Siti) | azad agent | Mina (Selta) | azad agent |
| | | | Karbonel (Fortuna) | icarə |
| | | | Balnko (Saraqosa) | icarə |
| Xetafe | Kukurelya (Barselona) | icarə | İbanyes (Jirona) | 2 milyon |
| | Halyeqo (Hueska) | 6 milyon | Harper (Alkorkon) | icarə |
| | Harper (Malaqa) | 1.5 milyon | Şibasaki (Deportivo) | azad agent |
| | Qarsiya (Jirona) | azad agent | Ximenes (Albasete) | azad agent |
| | Nyom (Vest Bromviç) | ? | Çuli (Albasete) | azad agent |
| | Fəcr (Kan) | 1.5 milyon | Flamini (Albasete) | azad agent |
| | Eçeyta (Atletik) | azad agent | | |
| | Timor (Las Palmas) | azad agnet | | |
| Sevilya | Kunde (Bordo) | 25 milyon | Ben Yedder (Monako) | 40 milyon |
| | Lopes (Monako) | 25 milyon | Sarabiya (PSJ) | 18 milyon |
| | Okampos (Marsel) | 15 milyon | Promes (Ayaks) | 15 milyon |
| | Karlos (Nant) | 15 milyon | Muryel (Atalanta) | 15 milyon |
| | Dabbur (Zalsburq) | 15 milyon | Merkadu (Əl Rayan) | azad agent |
| | Vöber (Ayaks) | 10.5 milyon | Qual (Jirona) | icarə |
| | Cordan (Eybar) | 14 milyon | Soriano (Leqanes) | icarə |
| | De Yonq (PSV) | 12.5 milyon | Aburyaniya (Tvente) | icarə |
| | Requlion Real) | icarə | | |
| | Torres (Portu) | 12 milyon | | |
| | Fernando (Qalatasaray) | 4.5 milyon | | |
| | Qudel (Quançjo) | azad agent | | |
| Espanyol | Varqas (Veles Sarsvild) | 10.5 milyon | Ermozo (Atletiko) | 25 milyon |
| | İtturaspe (Atletik) | azad agent | Martin (Maynts) | 6 milyon |
| | Espinoza (Jirona) | icarə | Duarte (klubsuz) | azad agent |
| | Prieto (Leqanes) | icarə | Roberto (Vest Hem) | azad agent |
| | | | Vaskes (Sportinq Xixon) | azad agent |

## Konte hamıdan çox qazanır

İtaliyanın “La Gazetta Dello Sport” nəşri A Seriyasında ən çox qazanan baş məşqçilərin adlarını açıqlayıb. Siyahıya Milanın “İnter” klubunun baş məşqçisi Antonio Konte başçılıq edir. 50 yaşlı mütəxəssis illik 11 milyon avro maaş alır. İkinci sırada yer alan “Yuventus”u çalışdıran Mauritsio Sarri Kontedən iki dəfə az qazanır - 5,5 milyon avro. “Napoli”nin baş məşqçisi Karlo Ançelotti isə 5 milyon avro məvacibla 3-cü sıradadır.



İtaliya A Seriyasında ən çox məvacib alan məşqçilərin siyahısını oxucularımıza təqdim edirik.

1. Antonio Konte (“İnter”) - 11 milyon avro
2. Mauritsio Sarri (“Yuventus”) - 5,5
3. Karlo Ançelotti (“Napoli”) - 5
4. Sinişa Mihayloviç (“Bolonya”) - 3
5. Paulo Fonseka (“Roma”) - 3
6. Canpyero Qasperini (“Atalanta”) - 2,5
7. Marko Campaolo (“Milan”) - 2
8. Simone İnzaqi (“Latsio”) - 2
9. Eusebio Di Françesko (“Sampdoriya”) - 1,8
10. Valter Matssari (“Torino”) - 1,8



# Dünya idmanı

## Şumaxerdən yeni xəbər var



Beş ildir komada olan Formula 1 yarışlarının əfsanəvi pilotu Mixael Şumaxerə Paris xəstəxanasında kök hüceyrə transplantasiya edilib. Alp dağlarında xizəklə sürüşərkən yıxılaraq zədə aldığı üçün süni aparata qoşulan pilotun ailəsi ona hüceyrə köçürülməsinə qərar verib. Bu üsul standart müalicəyə cavab verməyən xəstələrə tətbiq olunur. Belə ki, zədələnmiş orqanlara birbaşa kök hüceyrə yeridilməsi ilə orqanların yenidən əvvəlki funksiyası bərpa olunur. Mayalanmadan dörd gün keçdikdən və bir neçə hüceyrənin bölünməsindən sonra totipotent adlanan mayalanmış yumurta hüceyrələri inkişaf etməyə başlayır və blastosit adlanan içi boş kürəyə çevrilirlər. Müxtəlif hüceyrə növlərinə çevrilmə və özünü yeniləmə qabiliyyətinə malik olan bu hüceyrələrə "kök hüceyrə" deyilir.

Klinikanın tibbi heyətinin bir üzvünün (bu şəxs adının çəkilməsini istəməyib) "Le Parisien" nəşrinin nümayəndələrinə dediyinə görə, Şumaxer, həqiqətən, həmin xəstəxanadadır və onun huşu özünə qayıdıb. Nəşrin müsahibi deyib: "Bəli, o bizdədir. Sizi əmin edə bilərəm ki, huşu özündədir".

Daha sonra bildirilir ki, Mixael Şumaxer "Ferrari" komandasının heyətində çıxış edərkən bu komandaya rəhbərlik etmiş, hazırda FİA-nın prezidenti olan Jan Todt ona baş çəkməyə gedib.




**Şaquli**

1. İtaliya A Seriyasında çıxış edən komanda. 2. İngiltərədə qraflıq və futbol klubu. 4. Qeyri-Olimpiya idman növü. 6. Talismanı "qartal" olan klub 7. Dortmund "Borussiya"sının ispaniyalı ulduzu. 8. XVII Qış Olimpiya Oyunlarının keçirildiyi şəhər.

**Üfüqi**

3. Formula 1 komandası. 5. İdman akrobatikasında alət. 8. Kosta-Rika çempionatında iştirak edən klub. 9. Hokkey üzrə Rusiya liqasının təmsilçisi. 10. "Dəmir Mayk" ləqəbli boksçu. 11. Futbol üzrə yığma komandamızın kapitanı. 12. Sovet hokkeyinin əfsanəvi qapıçısı.

## Həbib Nurməhəmmədov növbəti rəqibinin adını açıqlayıb

Yüngül çəkidə UFC çempionu Həbib Nurməhəmmədovun növbəti rəqibinin adı açıqlanıb. Bu, kanadalı Jorj San-Pyerdir. Bu barədə Həbibin meneceri Əli Əbdül-Əziz məlumat verib: "Əgər Həbib miras üçün vuruşmaq istəyirsə, Sen-Pyerlə döyüş böyük hadisə olacaq. Sen-Pyer UFC tarixində ən güclü döyüşçülərdən biridir. Bundan başqa, bu döyüş Həbibə daha çox pul gətirəcək".

Menecerin sözlərinə görə, Həbibin bu görüşü 2019-cu ilin sonunadək ola bilər.

Qeyd edək ki, H.Nurməhəmmədov sentyabrın 7-də amerikalı Dastun Poryeni məğlub edərək yüngül çəkidə UFC çempionu titulunu növbəti dəfə qoruyub.




Bu, indiyə qədər heç bir döyüşü uduzmayan 30 yaşlı dağıstanlı idmançının 28-ci qələbəsidir.Qarışıq döyüş növləri üzrə ən güclü idmançılardan hesab edilən rusiyalı Həbib Nurməhəmmədov bu görüşdən sonra təşkilatın reytinq siyahısında ikinci yerdə qərarlaşıb. Reytinq siyahısında birinci yeri amerikalı Con Cons tutmaqda davam edir. Siyahıda üçüncü yerdə amerikalı Henri Sexudo qərarlaşıb.

## Eşli Barti reytinq siyahısına başçılıq edir



Qadın Tennisçilər Assosiasiyası (WTA) yeni reytinq siyahısını açıqlayıb. Siyahıya 6501 xalla avstraliyalı Eşli Barti başçılıq edir. Çexiyalı Karolina Plişkova reytinqdə bir pillə irəliləyərək 6125 xalla ikinci yerdə qərarlaşıb. Ukraynalı Elina Svitolina isə 5032 xalla üçüncü yerə yüksəlib. İlk onluğun digər pillələrində müvafiq olaraq, yaponiyalı Naomi Osaka (4846), kanadalı Byanka Andresku (4835), Rumıniya idmançısı Simona Xalep (4803), çexiyalı Petra Kvitova (4326), hollandiyalı Kiki Bertens (4325), amerikalı Serena Uilyams (3935) və İsveçrə təmsilçisi Belinda Bençiç (3738) yer alıblar.

**olimpnews.az - sizin saytınız**




## Dastin Porye Konor Makqreqor ilə döyüşmək istəyir

Qarışıq döyüş növlərinin (MMA) UFC kateqoriyası üzrə ən güclü idmançılardan hesab edilən Dastin Porye irlandiyalı Konor Makqreqor ilə revanş döyüşü keçirmək istəyir. Amerikalı idmançı bu barədə özünün "Twitter"dəki səhifəsində bildirib. "Düşünürəm, indi mənimlə Konor arasında revanş qarşılaşması olmalıdır", - deyə D.Porye yazıb.

İdmançılar 2014-cü il sentyabrın 27-də qarşılaşıblar. Həmin döyüşdə K.Makqreqor texniki nokautla qalib gəlib. O, bu məğlubiyyətdən sonra UFC-nin müvəqqəti çempionu titulundan məhrum olub. D.Porye aprelin 14-də həmvətəni Maks Hollouey ilə döyüşdə hakimlərin yekdil qərarına əsasən qalib gəlib və müvəqqəti çempion titulunu qazanıb. Otuz yaşlı D.Poryenin aktivində 25 qələbə və 6 məğlubiyyət var.

Azərbaycan Basketbol Federasiyasının İdarə Heyəti ABF-nin vitse-prezidenti, SSRİ idman ustası, Əməkdar məşqçi

**Azər Əbülfəz oğlu Qədirovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Azərbaycan Basketbol Federasiyasının vitse-prezidenti, SSRİ idman ustası, Əməkdar məşqçi

**Azər Əbülfəz oğlu Qədirovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı çap edilir.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19